# TORPAQ RESURSLARIMIZ: TƏBİİ, TƏSƏRRÜFAT VƏ HÜQUQİ ASPEKTLƏR

**Cəfərov A.B.**

*Bakı Dövlət Universiteti*
*a.jafarov@gmail.com*

Torpaq ölkənin ən böyük sərvətidir; onun dəyəri heç bir təbii sərvətlə müqayisə oluna bilməz. Torpaq inzibatçılığının yüksək formasında torpaq resursları aşağıdakılara cavab verməlidir: ölkənin ərzaq təhlükəsizliyi yüksək səviyyədə təmin olunmalı və idxaldan asılılığı kəsilməlidir; aqrar sektor iqtisadiyyatın gəlir gətirən sahəsi olmalıdır; hektardan alının ümumi məhsulun dəyərinin sabit artımı təmin edilməlidir; torpaqların münbitlik göstəricilərinin yüksələn xətt üzrə yaxşılaşması baş verməl və torpaqla bağlı ekoloji problemlər (şorlaşma, şorakətləşmə və eroziya) aradan götürülməlidir;

Aqrar sektorda tərəqqinin əldə edilməsi və səmərəli idarəetmə mexanizmlərinin yaradılması torpaq (aqrar) islahatlar vasitəsi ilə əldə edilir. Muasir dövrdə aqrar sektorda islahatlar aşağıdakı mərhələlərdən keçməklə həyata keçirilməlidir: *birinci mərhələdə*, aqrar islahatların konsepsiyasını hazırlaması; *ikinci mərhələdə*, islahatın hüquqi və institutsional əsaslarının, onu həyata keçirəcək təsisatının yaradılması; *üçüncü mərhələdə*, islahatları həyata keçirmək və torpaq münasibətləri və aqrar sektorda baş verən dəyişikliklər üzərində monitorinqi təşkil etmək; *dördüncü mərhələdə*, islahatın nəticələrinin təhlilini aparmaq, uğursuzluqların səbəblərini (əgər belə hal varsa) müəyyən etmək; *beşinci mərhələdə*, islahatların yeni mərhələsi üçün konsepsiyasını hazırlamaq.

1996-cı il islahatı ərəfəsində islahatla bağlı aşağıdakı bəzi konsepsiyalar var idi: *birinci konsepsiya*, torpaqlar dövlətin mülkiyyətində saxlanılmaqla kolxoz və sovxozlara tam iqtisadi azadlıqlar verilməli, «komanda-inzibati» qaydalar və dövlət planları ləğv olunmaqla, onların sərbəst rəqabətindən ötrü iqtisadi müxanizmələr işlənməlidir; *ikinci konsepsiya*, suvarılan torpaqları «komanda-inzibati» qaydalardan azad olmuş kolxozların istifadəsində saxlanılmaqla, dəmyə və az yararlı torpaqlar kənd təsərrüfatı istehsalı ilə məşğul olmaq istəyən şəxslərin icarəsinə, istifadəsinə və mülkiyyətinə verilməlidir; *üçüncü konsepsiya*, kolxoz və sovxozlar ləğv edilməli, vətəndaşalar arasında «pay torpağı» formasında bərabər şəklində paylanmalıdır.

Beləliklə, 1996-cı il torpaq islahatları üçüncü konsepsiya əsasında həyata keçirildi. Burada əsas aqrument Azərbaycan kəndlisinin öz şəxsi torpağının olmaması, tarixi və sosial ədalətin bərpa edilməsi idi. Bu islahatlar nəticəsində Respublikada xırda torpaq mülkiyyətçiliyi yaransa da, torpaq münasibətlərinin sonrakı taleyi belə əsaslandırılırdı: *birinci istiqamət*, xırda





torpaq mülkiyyətçiliyi şəraitində təsərrüfatçılığın səmərəsizliyini və çətinliyini görən fermerlərlər kolsolidasiyaya getməyə məcbur olacaqlar və nəticə orta ölçülü (60-150 ha) rentabelli, gəlir gətiən təsərrüfatlar yaranacaq; *ikinci istiqamət*, rəqabətə tab gətirə bilməyən xırda fermerlər torpaqlarını satıb və ya icarəyə verib, iqtisadiyyatın müxtəlif sahələrində işləməyə yönələcəklər. Regionların sosial-iqtisadi inkişafna yönəlmiş iri iqtisadi layihələr onları işlə təmin etməyə imkan verəcək. Azərbaycanda bu tendensiyalar epizodik şəkildə özünü göstərdi.

1996-cı il islahatlarından sonrakı vəziyyəti belə səciyyən-dirmək mümkündür: ölkə özünü əsas strateji ərzaq məhsulları ilə hələ tam təmin edə bilməmişdir və idxal məhsuldan asılılıq mövcuddur; kənd təəsrrüfatı iqtisadiyyatın gəlirlə işləyən sahəsinə çevrilməyib, onun məhsuldarlığı hələ də aşağıdır; ölkə xırda torpaq mülkiyyətçiyili hökm sürür və fermer təsərrüfatlarının konsolida-siyası çox zəifdir; dövlət və bələdiyyə torpaqlarında səmərəli fəaliyyət göstərən aqroparklar yaranır ki, bu da gələcəkdə xırda fermer təsərrüfatlarının mövcudluğunu şübhə altına alır; su ilə bağlı fermerlərin öz aralarında və fermerlərlə aqroparklar arasında gərginlik var, bu problem hüquqi müstəvidə və texniki baxımdan öz həllini tapmalıdır; torpaqların münbitliyinin artırılması, eroziya və təkrar şorlaşmalarla mübarizə fermerlərin və bələdiyyələrin maddi imkanları xaricindədir, ona görə də münbitlik göstəricilərinin pisləşməsi ümumi hal almışdır;

Kənd təsərrüfatında islahatların davamı kimi hansı strategiya seçilməlidir: suvarılan kənd təsərrüfatı torpaqları dövlət mülkiyyətinə qaytarılmalıdır; suvarılan torpaqlar hüquqi və fiziki şəxslərə yalnız istifadə və icarə hüququnda verilməlidir; kənd təsərrüfatında torpaqdan istifadənin və ya icarənin minimal və maksimal həddləri dəqiqləşdirilməlidir; elə minimal hədd götürülməlidir ki, icaradarlara və istifadəçilərə müasir aqrotexnikanı tətbiq etməyə imkan yaratmalı və 1 ha sahənin məhsuldarlığının «doyurma həddi» 40 nəfərdən az olmamalıdır (israildə bu göstərici 98, Rusiyada 15, Çində 4 nəfər təşkil edir); torpaqların maksimal həddi torpaq icarəçilərini və istifadəçilərini iri torpaq inhisarçılarına çevirməməlidir: hər bir istifadəçi rayon daxilində aqroparkların say və sahə həddi müəyyən edilməlidir;

İnzibati rayonlar daxilində suvarılan torpaqlarda təsərrüfatların formaları aşağıdakı optimal nisbətdə olması təklif edilir: aqroparklar (hüquqi şəxslər) – 10-15% (1000 ha-dan çox sahəsi olan təsərrüfatlar); kooparativ təsərrüfatlar – 60-65%; (200-500 ha və daha çox); fərdi icarəçilər və istifadəçilər -30-35% (10 ha-dan az olmamaq, 100 ha-dan çox olmamaq şərti ilə); kənd təəsrrüfatı məhsullarının emalı və istehlak məhsullarının istehsalının təsrrüfatlara keçirilməsindən ötrü hüquqi, iqtisadi və maliyyə mexanizmlərinin işə salınmalıdır; 60 hektardan çox sahəsi icarəyə götürən şəxsin fermerin fermerçilik fəaliyyətindən ötrü minimal aqrar təhsili olmalı, torpağı icarəyə götürərkən, biznes planı tədqim etməli və maliyyə mənbələrini

göstərməlidir.

Beləliklə, torpaq islahatlarının düzgün konsepsiya əsasında ikinci mərhələsinin həyata keçirilməsi Azərbaycanı regionun qüdrətli kənd təsərrüfatı ölkəsinə çevirəcək.